11 aprel 2023-cü il, çərşənbə axşamı
Xalq qəzeti

Unudulmaz tarix

**XX əsrdə insanlığa qarşı törədilmiş bu faciə yalnız Azərbaycan tarixinə deyil, bəşər salnaməsinə qanla yazılmış soyqırımı aktlarından biridir. Erməni faşistlərinin 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Kəlbəcər rayonunun Ağdaban kəndində həyata keçirdikləri qətliamı, necə deyərlər, nə yer götürür, nə də göy. Həmin gecə Ermənistan ordusu və daşnakların silahlı quldur dəstələri Ağdaban və Çayqovuşan kəndlərinə hücum edəndə sakinlər şirin yuxuda idilər. Kəndlərin keşiyini çəkən 3 nəfəri qətlə yetirən quldurlar səhər saat 6 radələrində müdafiəsiz qalmış Ağdabanı dörd tərəfdən atəşə tutdular. Qatillər hər şeyi əvvəlcədən planlaşdırmışdı: əhaliyə necə divan tutulacaq, evləri kimlər qarət edəcək, mal-davarı kimlər sürüb aparacaq, müqavimət göstərənlər necə qətlə yetiriləcək...**

# Ağdaban – ikinci Xocalımız



Bu faciə miqyasına və icra xarakterinə görə, Kəlbəcər rayonunun işğalından təxminən bir il əvvəl, Xocalı qətliamından 40 gün sonra ermənilərin Ağdabanda törətdiyi növbəti soyqırımı idi. O gecə 130 evdən ibarət Ağdaban tamamilə yandırıldı, 779 dinc sakinə insanlıqla bir araya sığmayan işgəncələr verildi, 67 nəfər amansızlıqla qətlə yetirildi. 8 ahıl qoca, 7 qadın və 2 azyaşlı tonqalda diri-diri yandırıldı. Bütün bunlar soyqırımı deyilsə, bəs nədir? Quduzlaşmış haylar 12 ağdabanlıya olmazın işgəncələr verdilər, 5 nəfəri əsir götürdülər, 2 sakin isə itkin düşdü.

Atası Camalı 8 yaşlı Ülviyyənin gözləri önündə güllələyən erməni vandalları bununla kifayətlənməyib, qızcığazın özünü də diri-diri quyuda basdırıblar. Bunu unutmağa haqqımız varmı? Nə qədər ki, bu faciəni törədən cəlladlar cəzalarına çatmayıb, ağdabanlıların intiqamı alınmayıb, yandırılan 17 soydaşımızın ruhu bizi bağışlamayacaq. Ağdaban faciəsi Xocalı soyqırımı kimi xalqımızın sızlayan yarasıdır.

Üstündən 31 il keçməsinə baxmayaraq, dinc əhaliyə qarşı törədilən bu qırğın, təəssüf ki, hələ də beynəlxalq hüquqi qiymətini almayıb. Dünya ictimaiyyəti Ağdaban qətliamı barədə həqiqətlərdən xəbər tutmalı, xalqımıza qarşı bu faciəni törədənlər layiq olduqları cəzanı almalıdırlar.

*İ.HƏSƏNQALA,*
*"Xalq qəzeti"*